# VERGİ VƏ HÜQUQA AİD YENİLİKLƏR

## Yanvar 2011



### İCBARİ HƏYAT SIĞORTASI

Azərbaycan Respublikası Prezidentinin 2 iyul 2010-cu il tarixli fərmanı ilə tətbiq edilmiş istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında qanuna əsasən, işəğötürənlər işçilərini icbari həyat sığortası ilə sığortalamalıdırlar.

2010-cu ilin noyabr buraxılışında qeyd etdiyimiz kimi iqtisadi fəaliyyət növündən asılı olaraq, tariflər qulluqçular üçün 0.2 – 0.5%, fəhlələr üçün isə 0.4 – 2% arasında dəyişir. Sığorta ayırmaları bu tariff dərəcələrinin illik əmək haqqı fonduna vurulması yolu ilə müəyyən edilir.

Hal-hazırda Qala Həyat və Atəşgah Həyat sığorta şirkətləri həyat sığortası xidməti göstəririlər.

Qeyri-rəsmi məlumata əsasən Əmək Müfəttişliyi bu qanunun icra edilməsini tənzimləmək məqsədilə fevral ayının ortalarından etibarən yoxlamaların aparılmasına başlayacaq.

Ətraflı məlumat almaq üçün bizə müraciət edə bilərsiniz.

### İCBARİ SIĞORTALAR HAQQINDA

21 yanvar 2011-ci il-də icbari sığortalar haqqında qanun layihəsi Azərbaycan Respublikasının Parlamentində birinci oxunuşda Milli Məclisin müzakirəsinə tövsiyyə edildi.

Qanun layihəsi dörd icbari sığorta növünü əhatə edir: daşınmaz əmlakın icbari sığortası; nəqliyyat vasitələrinin mülki məsuliyyətinin icbari sığortası; daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası; sərnişinlərin icbari fərdi qəza sığortası.

**Həsən Haqverdiyev**
**İdarəedici Partnyor**
**E-mail: hasan.hagverdiyev@nexia.az**

**Euro Audit MMC – "Nexia International"a üzv şirkət**
**World Business Centre 9-cu mərtəbə, S. Rəhimov və S. Vurğun küçələrinin kəsişməsi, Bakı AZ1014, Azəbaycan**
**Tel: +994 12 597 30 44 | www.nexia.az**